Siz iman gətirməyincə cənnətə daxil olmazssızvə bir-birinizi sevməyincə də iman gətirmiş sayılmazsınız. Sizə elə bir şey deyimmi ki, onu etsəniz bir-birinizi sevərsiz? Aranızda salamı yayın

Əbu Hureyradan (Allah ondan razı olsun) Allahın Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) belə buyurduğu rəvayət edilir: "Siz iman gətirməyincə cənnətə daxil olmazssızvə bir-birinizi sevməyincə də iman gətirmiş sayılmazsınız. Sizə elə bir şey deyimmi ki, onu etsəniz bir-birinizi sevərsiz? Aranızda salamı yayın".
[Səhih] [Muslim rəvayət etdi]

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) Cənnətə yalnız möminlərin daxil olacağını, bir-birilərini sevməyincə də imanlarının kamil olmayacağını və nəticə etibarı ilə müsəlman toplumun islah olmayacağını açıqlamışdır. Beləliklə Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) müsəlmanlar arasında məhəbbətə səbəb ola biləcək ən faydalı əmələ, Allahın qulları üçün salamlaşma olaraq təyin etdiyi, salamı yaymağa yönləndirdi.

http://sunnah.global/hadeeth/az/show/3361